# VARLI ATA
# KASIB ATA

ROBERT T. KiYOSAKi və Ş. LEKTOR

Tərcüməçi:
Aydan Xəyal

qanun nəşriyyatı

# Rich Dad Poor Dad

By Robert T. Kiyosaki and S. Lechter

“Varlı ata, kasıb ata” maliyyə azadlığı haqqında son 30 ilin ən geniş yayılan və ən çox insanın düşüncə tərzini dəyişdirən inkişaf və biznes kitablarından biridir. Kitabda bir-birindən tam fərqli düşüncə sahibi olan iki “ata”nın – doğma ata (kasıb ata) və dostun atasının (varlı ata) düşüncə sistemləri müqayisə edilir.

Qanunları pozmadan varlanmağın sirlərindən bəhs edən müəlliflər bu istiqamətdə öz təcrübələrini bölüşür, mümkün prinsip və şərtləri təhlil edirlər. Kitabın ümumi məğzi: müasir dövrdə çoxlu pul qazanmaq üçün çox işləməyə ehtiyac yoxdur. Ağıllı olmaq, enerjini və biliyi səmərəli xərcləmək yetərlidir. Əldə olunan vəsaiti düzgün bölüşdürmək və ondan düzgün istifadə etmək də şərtdir. Eyni zamanda, maliyyə savadı almaq, bazar konyunkturasını öyrənmək və bütün bunları təcrübədə tətbiq etmək...

Yaxşı var-dövlət qazanmaq və öz həyatınızı firavan yaşamaq istəyirsinizsə, doğru ünvandasınız.

Kitab dünyadakı bütün valideynlərə –
uşaqların ən əsas müəllimlərinə həsr olunur.

Varlı valideynlər övladlarına nə öyrədirlər ki, bunu kasıb valideynlər öyrətmir?

Biz bu kitaba layiq olduğu açıqlamanı yaza bilmədik, lakin o, bir çox həyatları dəyişib və dünyada bir çox yeni ideyaların yaranmasının səbəbkarı olub.

# MÜNDƏRİCAT

**Giriş:** BU HƏR KƏSƏ LAZIMDIR ....................................................................9

**I Bölüm:** VARLI ATA, KASIB ATA ................................................................ 22

ROBERT FROSTUN MƏNƏ VERDİYİ DƏRS ............................................ 27

**II Bölüm:** Dərs 1. VARLILAR PUL ÜÇÜN İŞLƏMİR ............................ 30

**III Bölüm:** Dərs 2. MALİYYƏ SAVADI NƏ ÜÇÜN LAZIMDIR? ...... 67

**IV Bölüm:** Dərs 3. ÖZ İŞİNİZİ QURUN .................................................... 96

**V Bölüm:** Dərs 4. VERGİLƏR NECƏ YARANDI VƏ

KORPORASİYALARIN ÜSTÜNLÜYÜ NƏDƏDİR? ............................... 106

**VI Bölüm:** Dərs 5. VARLILAR PULU İXTİRA EDİRLƏR.................... 120

**VII Bölüm:** Dərs 6. PUL ÜÇÜN YOX, TƏCRÜBƏ ÜÇÜN İŞLƏYİN .........146

**VIII Bölüm:** NƏDƏN BAŞLAMALI? MANEƏLƏRİ AŞMAQ .......... 162

**IX Bölüm:** İLK ADDIMLAR ............................................................................ 184

**X Bölüm:** DAHA BİR NEÇƏ PRAKTİK MƏSLƏHƏT ......................... 213

**Epiloq:** XOŞBƏXT VALİDEYNLƏR...........................................................220

**Müəlliflərdən ............................................................................................. 224**

**Müəlliflər haqqında:**

Robert T. Kiyosaki ........................................................................225

Şeron L. Lektor ........................................................................227

**Robert Kiyosakinin, oxucularına təhsil-reklam xarakterli müraciəti** ........................................................................228

**Öyrənməyin ən sadə və asan üsulu hansıdır?** ...........................232

## Giriş:

## BU HƏR KƏSƏ LAZIMDIR

Məktəb, uşaqları real həyatda yaşamağa hazırlayırmı? Mənim savadlı valideynlərim deyərdilər: "Yaxşı oxu, yaxşı qiymətlər al! Və sən yüksək məvacibli işə düzələ bilərsən!" Onların həyatda əsas məqsədləri mənə və böyük bacıma universitet təhsili vermək idi ki, bizim gələcəkdə uğur qazanmaq üçün şansımız olsun.

1976-cı ildə mən, nəhayət ki, mühasibat işimdən diplom aldım. Florida Universitetini fərqlənmə ilə bitirdim və mənim valideynlərimin arzusu həyata keçdi. Onların böyük planına uyğun olaraq məni iri bir mühasibat şirkəti işə götürdü. Mənim qarşımda yüksələcəyim vəzifələrin uzaq yolu və nisbətən tez təqaüdə çıxmaq imkanı dururdu.

Ərim Mayklın da hekayəsi mənimkinə bənzəyir. Biz hər ikimiz aztəminatlı ailədə böyümüşdük və bizim ailədə əməyə böyük hörmət var idi. Maykl iki fərqlənmə diplomu almışdı – birincisini mühəndis, ikincisini hüquqşünas kimi. Ona Vaşinqtonda tanınmış müəllif hüquqları ilə məşğul olan hüquq firmasında iş təklif etdilər. Gələcək parlaq görünürdü. Hamı əmin idi ki, onu uğurlu karyera gözləyir. Həqiqətən də bizim hər ikimizə karyera qurmaq müyəssər

olsa da, heç də hər şey bizim gözlədiyimiz kimi olmadı. Biz bir neçə dəfə müxtəlif ağlabatan səbəblərdən iş yerimizi dəyişməli olduq və indi firma bizə gözlədiyimiz təqaüdü verməyəcəkdi. Bizim təqaüd fondumuz yalnız bizim öz sərmayəmiz sayəsində artır. Mayklla bizim gözəl ailəmiz və 3 övladımız var. İndi mən bu sətirləri yazdığım anda, onlardan ikisi kollecdə oxuyur, üçüncü isə yuxarı sinif şagirdidir. Biz külli miqdarda pul xərcləyirik ki, övladlarımız ən yaxşı təhsili alsınlar.

Bir dəfə, 1996-cı ildə oğullarımdan biri məktəbdən çox acıqlı qayıtdı. O oxumaqdan bezmişdi: "Mən niyə mənə heç vaxt lazım olmayacaq fənləri öyrənməliyəm?" "Çünki sənin qiymətlərin pis olsa, səni kollecə götürməyəcəklər". "Məni ora götürsələr də, götürməsələr də, mən varlı olacam". "Əgər sən kolleci bitirməsən, yaxşı iş tapa bilməyəcəksən", – mən artıq narahatlıqla cavab verdim. – "Bəs sən yaxşı işin olmadan necə varlanacaqsan?" Oğlum gülümsündü və başını yellədi. "Eyni şeyi nə qədər demək olar? Ana, sən zəmanədən geri qalırsan. Bir ətrafa bax. Ən varlı adamlar təhsillərinə görə varlanmırlar. Maykl Cordana, Madonnaya bax. Hətta Bill Qeyts Harvardı bitirmədən "Microsoft"u yaratdı. İndi isə o, Amerikada ən varlı adamdır, onun hələ 40 yaşı da olmayıb. Bir beysbolçu ildə 4 milyon dollardan çox qazanır. Onu isə ağıldankəm elan etmişdilər".

Biz bir müddət susduq və bu an mən başa düşdüm ki, oğluma nə vaxtsa öz valideynlərimdən eşitdiyim məsləhətləri verirəm. Ətrafımızdakı dünya dəyişilib, məsləhətlər isə eyni qalıb. Yaxşı təhsil və əla qiymətlər artıq uğuru təmin etmir. Lakin bunları bizim övladlarımızdan başqa sanki heç kim fərq etmir.